# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 mart tarixli 93 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 mart tarixli 93 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 524; 2012, № 2, maddə 187; 2016, № 2 (II kitab), maddə 372, № 6, maddə 1213; 2018, № 3, maddə 611, № 4, maddə 792, № 5, maddə 1116, № 10, maddə 2143; 2019, № 8, maddə 1479, № 12, maddə 2050; 2020, № 12 (V kitab), maddə 1586; 2022, № 4, maddələr 379, 390; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 24 aprel tarixli 91 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyası” sözləri “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası” sözləri ilə əvəz edilsin.

2. 2-ci hissədə “Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üzrə Respublika Komissiyasının” sözləri “Azərbaycan Respublikası

Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası" sözləri ilə əvəz edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. adı aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyasının tərkibi";

3.2. Komissiyanın tərkibi yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 5 oktyabr 2022-ci il

№ 384

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 5 oktyabr
tarixli 384 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyasının

## T Ə R K İ B İ

**Komissiyanın sədri**

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi

Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatının rəhbəri.